*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 3, s.37-40*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 3, p.37-40*
*Нахчыванский институт учителей. Научные труды, 2025, № 3, с.37-40*

**UOT: 37.018:355.4**
https://doi.org/10.30546/670832.2025.02.1031

# Hərbi ixtisas fənlərinin tədrisi prosesində hərbi vətənpərvərlik tərbiyəsi məsələlərinə dair

**Müəllif(lər):**

**Cavanşir Zeynallı**
Naxçıvan Dövlət Universiteti
Müəllim
**E-poçt:** cavanzeynalli@gmail.com
https://orcid.org/ 0009-0005-0481-6992

**Açar sözlər:** hərbi, fənn, hərbi vətənpərvərlik, tərbiyə, ordu, yeniyetmə

**Annotasiya.** Məqalədə hərbi ixtisas fənlərinin tədrisi prosesində hərbi-vətənpərvərlik tərbiyəsinin pedaqoji mahiyyəti, onun məzmun və formalaşdırılma xüsusiyyətləri elmi-nəzəri baxımdan araşdırılmışdır. Tədqiqatın əsas məqsədi ali təhsil müəssisələrində, xüsusilə hərbi hazırlıq fənlərinin tədrisi zamanı gənclərdə vətənpərvərlik şüurunun, dövlətçilik təfəkkürünün və Azərbaycan Silahlı Qüvvələrinə mənəvi-psixoloji hazırlığın formalaşmasında bu fənlərin rolunu müəyyənləşdirməkdir.

Araşdırma çərçivəsində hərbi-vətənpərvərlik tərbiyəsinin tarixi, mənəvi və sosial əsasları, eləcə də bu sahədə formalaşmış pedaqoji yanaşmalar təhlil edilmiş, ailənin, təhsil müəssisələrinin və ictimai mühitin qarşılıqlı fəaliyyətinin əhəmiyyəti əsaslandırılmışdır. Elmi-nəzəri ədəbiyyatın müqayisəli və sistemli təhlili əsasında hərbi hazırlıq dərslərinin təlim-tərbiyə imkanları müəyyən olunmuş, hərbi-didaktik prinsiplərə əsaslanan tədrisin tərbiyəvi potensialı ön plana çəkilmişdir.

Tədqiqatın nəticələri göstərir ki, hərbi ixtisas fənlərinin məqsədyönlü, ardıcıl və sistemli şəkildə təşkili gənclərdə vətənə sədaqət, milli dəyərlərə bağlılıq, orduya hörmət və vətəndaş məsuliyyəti kimi keyfiyyətlərin formalaşmasına mühüm təsir göstərir. Nəticə etibarilə, hərbi-vətənpərvərlik tərbiyəsinin tədris prosesi ilə ictimai mühitin vəhdəti şəraitində həyata keçirilməsi milli təhlükəsizliyin möhkəmləndirilməsi və vətəndaş mövqeyinə malik gənc nəslin yetişdirilməsi baxımından aktual pedaqoji əhəmiyyət kəsb edir.

## On issues of military patriotizm upbringing in teaching military specialized subjects

**Author(s):**

**Javanshir Zeynalli**
Nakhchivan State University
Teacher
**E-mail:** cavanzeynalli@gmail.com
https://orcid.org/ 0009-0005-0481-6992

**Key words:** military, subject, military-patriotism, upbringing, army, teenager

**Abstract**. This article deals with the pedagogical essence of military-patriotic education in the teaching process of military specialities, its content as well as its methods of formation . The main objective of the study is to determine the significance of this subjectin the formation of moral and psychological readiness for Armed Forces of Azerbaijan, the formation of patriotic consciousness in young people during the teaching of military specialized subjects in higher educational institutions.

İn the research  the historical, moral and social foundations of military-patriotic education as well as  the  pedagogical approaches in this field were analyzed,the importance of interaction of the family, educational institutions and social environment was substantiated.On the basis of comparative and systematic analysis of scientific ana theoretical literature the educational opportunities of military training classes were determined and educational potential of teaching based on military –didactic principles was cleared.

The results of the research show that, a purposeful, consistent and systematic organization of military specialization subjects significantly contributes to the development of loyalty to the homeland, adherence to national values, respect for the armed forces and citizenship in young people. Consequently the implementation of military-patriotic education  in the context of the unity of the educational process and the social environment is urgent pedagogical importance in terms of strengthening national security and raising a young generation with a  civic position.

## К вопросам военно-патриотического воспитания в процессе преподавания военно-профессиональных дисциплин

**Автор(ы):**

**Джаваншир Зейналлы**
Нахчыванский государственный университет
Преподаватель
**Э-почта:**cavanzeynalli@gmail.com
https://orcid.org/ 0009-0005-0481-6992

**Ключевые слова:** военный, дисциплина, военно-патриотическое воспитание, воспитание, армия, подросток

**Аннотация.** В статье с научно-теоретических позиций исследуется педагогическая сущность военно-патриотического воспитания в процессе преподавания военно-профессиональных дисциплин, его содержание и особенности формирования. Основной целью исследования является определение роли данных дисциплин в формировании у молодежи патриотического сознания, государственного мышления и морально-психологической готовности к службе в Вооружённых Силах Азербайджанской Республики в условиях высших учебных заведений, особенно при преподавании дисциплин военной подготовки.

В рамках исследования проанализированы исторические, духовные и социальные основы военно-патриотического воспитания, а также сложившиеся в данной сфере педагогические подходы; обоснована значимость взаимодействия семьи, образовательных учреждений и социальной среды. На основе сравнительного и системного анализа научно-теоретической литературы определены учебно-воспитательные возможности занятий по военной подготовке, выделен воспитательный потенциал обучения, основанного на военно-дидактических принципах.

Результаты исследования показывают, что целенаправленная, последовательная и системная организация преподавания военно-профессиональных дисциплин оказывает существенное влияние на формирование у молодежи таких качеств, как верность Родине, приверженность национальным ценностям, уважение к армии и гражданская ответственность. В итоге реализация военно-патриотического воспитания в единстве учебного процесса и общественной среды имеет актуальное педагогическое значение с точки зрения укрепления национальной безопасности и воспитания поколения молодежи с активной гражданской позицией.

**Giriş**. Razılıq hissi ilə qeyd etmək lazımdır ki, son illər respublikamızın ali məktəblərində tələbələrin hərbi-vətənpərvərlik tərbiyəsinin keyfiyyəti durmadan yaxşılaşmaqdadır. Öz işini məktəb islahatının tələbləri səviyyəsində qurmağa çalışan pedaqoji kollektivlər tərbiyə işinin bu mühüm sahəsinin səmərəliliyini daim artırmağa diqqət yetirirlər. Hərbi işə maraq tərbiyə etməyə çalışırlar. Məktəbdə yaxşı bir maraq yaratmaq lazımdır. İstər məzuniyyətdən buraxılmış və istərsə də, ordu sıralarından tərxis olunmuş əsgərlərlə ali məktəb tələbələrinin təntənəli görüşü keçirilir. Belə görüşlər tələbələrdə hərbi-vətənpərvərlik hisslərinin qüvvətlənməsinə böyük kömək göstərir.

Tələbələrin hərbi-vətənpərvərlik tərbiyəsi məktəbdənkənar tədbirlərində böyük rolu vardır. Hərbi-vətənpərvərlik tərbiyəsinin məktəbdənkənar formalarında söhbətlər, mülahizələr, çıxışlar, nəzəri konfranslar, inqilab veteranları ilə, habelə vətəndaş və Böyük Vətən müharibəsi iştirakçıları, əmək qabaqcılları, yarış qalibləri ilə görüşlər, döyüş və əmək şöhrəti yerlərə yürüşlər, "Üfüqdə parıltı", "Qartal balası" hərbi idman oyunları, hərbi işin və hərbi texnikanın öyrənilməsinə xidmət edən vətənpərvərlik mövzularına həsr olunmuş toplantıları, döyüş və əmək şöhrəti muzeylərinin yaradılması, hərbi-vətənpərvərlik mövzularına aid ən yaxşı şeir, rəsm və fotoşəkillərin müsabiqəsini keçirmək, müharibə veteranlarına və müharibədə həlak olanların ailələrinə hamilik yardımı göstərmək, çağırışçıları ordu sıralarına yolu salınması və digər iş formaları daxildir. Kütləvi tədbirlərin müxtəlif formaları içərisindən hərbi-vətənpərvərlik tərbiyəsi istifadə etmək mühüm şərtlərdən biridir[4, s.19].

Yuxarıda göstərdik ki, tələbələrin hərbi-vətənpərvərlik tərbiyəsi həyatımızın bütün sahələrində və ali məktəblərində, təlim-tərbiyə müəssisələrində, idman bölmələrində, nəhayət, ailədə keçirilməlidir.

Ailədə aparılan hərbi-vətənpərvərlik tərbiyəsi üzrə işin formaları mahiyyət etibarilə formalara oxşayır, lakin ailə şəraitində həyata keçirilən vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsi hərbi hazırlıq kursunun proqram çərçivəsində aparılan hərbi-vətənpərvərlik tərbiyəsindən bir sıra üstün cəhətləri ilə fərqlənir. Ali məktəblərdə və digər tərbiyə ocaqlarında formalaşıb möhkəmlənəcək hərbi-vətənpərvərlik tərbiyəsi üçün bünövrə ata, ana və ailənin digər yaşlı üzvləri tərəfindən qoyulur, lakin bu iş xüsusən bədən tərbiyəsi müəllimi, hərbi rəhbər, valideyn yığıncaqlarında, görüşlərdə valideynlərə müəyyən istiqamət verilməli, lazımi kömək göstərilməlidir.

Müharibədə olmuş və yaxud hazırda hərbi hissələrdə qulluq edən rütbəli qohum və tanışların söhbətləri hərbi-vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır. Belə söhbətlər gənclərdə hərbi vətənpərvərlik hissləri oyadır. Gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsinə ciddi fikir verilməlidir. Müxtəlif adda və məzmunda stentlər, guşələr yaradılmalıdır. "Azərbaycanın generalları və sərkərdələri", "416-cı qırmızı bayraq ordenli Taqanrak diviziyası", "Nəsillərə nümunə", "Rayon veteranları", "Azərbaycan ordusunda xidmət edən məzunlar", "Məktəbin məzunları", "Həzi Aslanovun döyüş yolu" stentləri diqqəti cəlb edir.

Tarixi yaradan da, yaşadan da xalqın özüdür. Hər hansı bir xalqın tarixi dünya xalqları arasında o, vaxt özünə layiqli yer tutur ki, bu tarix Vətən və millət məfrumları ilə sıx bağlı olsun, vətənpərvərlik çox geniş anlayışdır və qədim tarixə malikdir. Vətənpərvərlik ən yaxşı ənənələri özündə əks etdirməklə insanlarda keçmiş tarixi irsə məhəbbət oyadır. Bu hiss insanları Vətən yolunda misilsiz qəhrəmanlığa və fədakarlığa ruhlandırır, yüksək vətəndaşlıq, namus, qeyrət, çətin anda cəsarət, əyilməzlik, döyüşkənlik, məğrurluq hissləri aşılayır.

Vətənpərvərlik Vətənə, doğma torpağa, xalqa, onun dilinə, adət-ənənələrinə, mədəniyyətinə, tarixinə məhəbbət deməkdir. Hələ qədim vaxtlardan Azərbaycanda elə nəsillər, elə qəbilələr olmuşdur ki, onlar öz döyüşkənliyi ilə təkcə Qafqazda yox, hətta bütün dünyada tanınmışlar. Naxçıvanda Kəngərlilər, Bakıda Bakıxanovlar, Qazaxda Şıxlınskilər və Vəkilovlar, Borçalıda Yadigarovlar, Şəkidə Çələbilər, Gəncədə Cavadxanovlar, Qarabağda Cavanşirlər, Lənkəranda Talışinskilər kimi el qeyrətini çəkən, Vətən torpağını təhlükə gözləyəndə birləşib ayağa qalxan, onun hər qarışı uğrunda canlarından keçən oğullar yetişib.

Yeniyetmələrdə hərbi-vətənpərvərlik hissi mərd və mübariz igidlərimiz haqqında, milli qəhrəmanlarımız və şəhidlərimiz haqqında hadisələri şüurlu surətdə qavradıqda, onlar haqqında lazımi

biliklərə yiyələndikdə baş qaldırır və inkişaf edir. Belə hallarda yeniyetmə təsvir olunan qəhrəmanların taleyinə biganə qala bilmir. O, qəhrəmanın hissləri və taleyi ilə yaşayır, ona kömək etmək, onunla birlikdə Vətən düşmənləri ilə vuruşmaq istəyir. Onlarda düşmənə qarşı qəzəb və nifrət hissi yaranır. Yaranmış bu hiss gənclərdə hərbi-vətənpərvərlik hisslərinin artmasına güclü təsir göstərir.

Müasir dövrdə gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi mühüm əhəmiyyət kəsb edir. Vətənə məhəbbət hissi və Vətənin müdafiəsi bu günlər həmişəkindən çox ön planda durur. Görkəmli ictimai xadim, şair və dramaturq Şıxəli Qurbanov qeyd edir ki, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsi ana südündən, ana laylasından başlanır, ana bətnindən ananın Vətənə məhəbbətindən, ananın hərbi vətənpərvərliyindən başlanır, baxçada və sonralar məktəbdə, ictimai həyatda daha da təkmilləşir, formalaşır.

Nəyim var sənindir, bu baş, bu bədən,
Əcəl aman verə ömür bitməyə!
Sənə qurban olum demirəm Vətən,
Hazıram yolunda qurban getməyə.

Buna görə də hər bir azərbaycanlı öz sayıqlığını artırmalı, ölkəmizin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi üçün xüsusilə, gənclər arasında hərbi-vətənpərvərlik tərbiyəsi daim gücləndirilməlidir.

Ümummilli liderimiz Heydər Əliyev gənclərə vətənpərvərliklə bağlı fikirlərini belə bildirmişdir: “Birinci, növbədə hər bir gənc vətənpərvər olmalıdır. İndi Azərbaycan müstəqil dövlət kimi yaşadığı zamanda vətənpərvərlik hər bir insanın, xüsusən hər bir gəncin ən ümdə borcu, vəzifəsi olmalıdır. Ancaq vətənpərvərlik gərək insanın özündə olsun. Borc o, demək deyildir ki, vətənpərvərlik tələb edirsən, o da vətənpərvər olur. Yox! Mən bunu deyərkən bildirmək istəyirəm ki, bütün təhsil ocaqlarında gənclərlə məşğul olan bütün təşkilatlarda vətənpərvərlik hissinin aşılanması vətənpərvərlik hissinin hər bir gəncin qəlbində olması üçün lazımi tədbirlər görmək lazımdır” [1, s.93]

İnsana məxsus mənəvi keyfiyyətlər içərisində vətənpərvərlik hissi mühüm yer tutur. Bu müqəddəs hissin uşaqlarda lap kiçik yaşlarında tərbiyə edilməsi böyük əhəmiyyət kəsb edir. Kiçikyaşlı uşaqlar Vətən haqqında biliklərini ilk əvvəl ailədə, uşaq bağçasında, sonra məktəbdə, daha sonra isə kitabxanalarda zənginləşdirirlər.

Məktəbəqədər yaşlı uşaqlarda vətənpərvərlik tərbiyəsini formalaşdırmaq üçün ilk əvvəl onlara Vətənimizi, dilimizi gözəlliklərindən danışmaq, təbiəti sevməyi öyrənmək lazımdır. Onlara Vətən haqqında şeirlər əzbərlətməli, nağıllar oxumalı, qəhrəmanlıqlardan danışılmalıdır. Bu gün məktəbəqədər yaşlı uşaqlar Azərbaycanın dövlət himni oxuya bilirsə, demək, biz vətənpərvər olmağa layiq nəsil tərbiyə edirik.

Tarix boyu xalqımız Vətənə məhəbbət, vətənpərvərlik hissi ilə doğma yerlərə və adamlara bağlılıqdan başlayaraq bütün qüvvə və qabiliyyətini Vətənin, xalqın mənafeyi uğrunda mübarizəyə qədər yüksəlmişdir. Əgər xalqımız vətənpərvər olmasaydı, əliyalın yurddaşlarımız 1990-cı ilin 20 yanvar gecəsi sinələrini düşmən gülləsinə sipər etməzdilər.

Bu gün hər sahədə bizə öyrənc olan xalqımızın qəlbində daimi yer tutan heç bir zaman unudulmayan ulu öndərimiz Heydər Əliyevin keçdiyi və seçdiyi həyat yolu, Vətən torpağına olan təəssübkeşlik, onun azadlığı uğrunda apardığı mübarizə və quruculuq işləri yeniyetmə və gənclərimiz üçün əsl vətənpərvərlik məktəbidir. Vətən və əqidə yolunda, xalq işi uğrunda dönməzlik Heydər Əliyev şəxsiyyətində ən sanballı, parlaq nümunəsidir.

**Material və metodlar.** Tədqiqatda hərbi ixtisas fənlərinin tədrisi prosesində hərbi-vətənpərvərlik tərbiyəsinin pedaqoji mahiyyəti və onun formalaşdırılma mexanizmlərinin araşdırılması məqsədilə əsasən elmi-nəzəri və analitik metodlardan istifadə olunmuşdur.

Araşdırmanın material bazasını Azərbaycan Respublikasında hərbi-vətənpərvərlik tərbiyəsinə dair normativ-hüquqi sənədlər, müvafiq elmi-pedaqoji ədəbiyyat, tanınmış alimlərin və ictimai xadimlərin mövzu ilə bağlı elmi baxışları, həmçinin hərbi hazırlıq fənlərinin tədrisi təcrübəsinə dair mövcud mənbələr təşkil etmişdir.

Tədqiqat prosesində təhlil və sintez, müqayisəli-tarixi, məzmun analizi, ümumiləşdirmə və sistemli yanaşma metodlarından istifadə olunmuşdur. Elmi mənbələrin təhlili əsasında hərbi-vətənpərvərlik tərbiyəsinin anlayış-kateqorial aparatı dəqiqləşdirilmiş, onun ali təhsil müəssisələrində, xüsusilə hərbi ixtisas fənlərinin təd-

risi prosesində həyata keçirilmə xüsusiyyətləri müəyyən edilmişdir.

Müqayisəli təhlil metodu vasitəsilə müxtəlif dövrlərdə və fərqli pedaqoji yanaşmalar çərçivəsində hərbi-vətənpərvərlik tərbiyəsinin məzmunu və formaları araşdırılmış, müasir tələblərə cavab verən effektiv istiqamətlər ümumiləşdirilmişdir. Sistemli yanaşma metodu isə hərbi hazırlıq dərslərinin təlim-tərbiyə imkanlarının bütöv pedaqoji proses kontekstində qiymətləndirilməsinə şərait yaratmışdır.

Aparılan nəzəri təhlillər nəticəsində hərbi rəhbərin, ailənin, təhsil müəssisələrinin və ictimai mühitin hərbi-vətənpərvərlik tərbiyəsində rolu elmi əsaslarla şərh edilmiş, mövzunun aktual pedaqoji əhəmiyyəti ümumiləşdirilmişdir.

**Nəticə və müzakirə.** Aparılmış elmi-nəzəri təhlil göstərir ki, hərbi ixtisas fənlərinin tədrisi prosesi tələbələrdə hərbi-vətənpərvərlik tərbiyəsinin formalaşdırılmasında mühüm pedaqoji potensiala malikdir. Bu fənlər yalnız hərbi bilik və bacarıqların mənimsədilməsinə deyil, eyni zamanda gənclərdə Vətənə məhəbbət, dövlətçilik düşüncəsi, orduya bağlılıq və vətəndaş məsuliyyəti kimi mühüm mənəvi keyfiyyətlərin inkişafına xidmət edir.

Müzakirə olunan elmi mənbələrin təhlili sübut edir ki, hərbi-vətənpərvərlik tərbiyəsi sistemli və məqsədyönlü şəkildə təşkil edildikdə onun səmərəliliyi əhəmiyyətli dərəcədə artır. Xüsusilə hərbi hazırlıq dərslərində hərbi-didaktik prinsiplərə əsaslanan təlim, praktiki məşğələlərin və nümunəvi fəaliyyətlərin tətbiqi tələbələrin hərbi xidmətə psixoloji və ideoloji hazırlığını möhkəmləndirir. Bu baxımdan, hərbi rəhbərin peşəkarlığı, şəxsi nümunəsi və pedaqoji yanaşması həlledici amil kimi çıxış edir.

Müzakirələr zamanı müəyyən edilmişdir ki, hərbi-vətənpərvərlik tərbiyəsi yalnız tədris prosesi ilə məhdudlaşmamalı, məktəbdənkənar və ictimai fəaliyyətlərlə, ailə tərbiyəsi ilə və sosial mühitlə qarşılıqlı əlaqədə həyata keçirilməlidir. Veteranlarla görüşlər, hərbi-idman oyunları, tarixi şəxsiyyətlərə və milli qəhrəmanlara həsr olunmuş tədbirlər gənclərin emosional-mənəvi dünyasına güclü təsir göstərərək tərbiyə prosesinin təsirliliyini artırır.

Araşdırmanın nəticələri onu göstərir ki, müasir dövrdə hərbi-vətənpərvərlik tərbiyəsinin məzmunu milli ideologiya, dövlətçilik maraqları və çağdaş təhlükəsizlik çağırışları ilə uzlaşdırılmalıdır. Ümummilli lider Heydər Əliyevin gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinə dair irəli sürdüyü ideyalar bu sahədə metodoloji əsas kimi çıxış edir və təhsil sistemində ardıcıl şəkildə tətbiq olunmalıdır.

Beləliklə, hərbi ixtisas fənlərinin tədrisi prosesində hərbi-vətənpərvərlik tərbiyəsinin səmərəli təşkili gənc nəslin vətəndaş mövqeyinin formalaşdırılmasında, onların Azərbaycan Silahlı Qüvvələrində xidmətə mənəvi-psixoloji hazırlığında və milli təhlükəsizliyin möhkəmləndirilməsində mühüm əhəmiyyət kəsb edir. Aparılan müzakirələr göstərir ki, bu istiqamətdə pedaqoji fəaliyyətin daha da təkmilləşdirilməsi elmi əsaslandırılmış yanaşmaların və praktik təcrübənin vəhdətini tələb edir.

**Ədəbiyyat**


1. Ağayev, H.M. Heydər Əliyev və gənclərin hərbi vətənpərvərlik tərbiyəsi // – Bakı: “Azərbaycan məktəbi”, –2002. № 2, – s. 92-94.
2. Ağayev, M.H Humanitar fənnlərin tədrisi prosesində məktəblilərin vətənpərvərlik tərbiyəsi / M.H.Ağayev. –Bakı: Müəllim, – 2004. – 114 s.
3. Cəfərov, H.R. Gənclərdə vətəndaşlıq və vətənpərvərlik hisslərinin formalaşdırılması // – Bakı: Mədəni-maarif, № 1, – 2006. – s. 44-45.
4. Dadaşov, C. Yeniyetmələrin hərbi-vətənpərvərlik tərbiyəsi. // – Bakı: Mədəni-maarif. –2006. № 8, – s.18- 20.
5. Fətəliyev, X.Q. Məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsi / X.Q.Fətəliyev. – Bakı: Marif, – 1987. – 146 s.


*Məqalə pedaqogika üzrə fəlsəfə doktoru, dosent Rövşən Vəliyev tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 21.04.2025, son daxilolma – 15.06.2025, qəbulolunma – 10.09.2025